

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 mart 2026-cı il №18 (3020) https://mod.gov.az Qiyməti 30 qəpik


## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmiş və ona dərin ehtiram göstərmişdir. Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Hər bir azərbaycanlının qəlbində məhz Ana məfhumu daim doğma yurdla, Vətən torpağı ilə bağlı işıqlı duyğular yaradır. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında, dilimizin əsrlərin sınağından çıxaraq layiqincə yaşadılmasında analarımızın misilsiz xidməti vardır.

Ölkəmizdə tarixən qadının cəmiyyət həyatında fəal iştirakına həmişə rəğbət və hörmətlə yanaşılmışdır. Azərbaycan qadınlarının bir çox qabaqcıl dünya ölkələri qadınlarından daha əvvəl seçib-seçilmək hüququ əldə etmələri bu mütərəqqi münasibətin ifadəsidir. Ötən illərdə sosial-mədəni təşəbbüskarlıqları ilə yüksək ictimai mövqe və nüfuz sahibi olmuş qadınlarımız təhsil, mədəniyyət, səhiyyə və elm sahələrində bu gün də uğurla çalışmaqdadırlar. Maarifpərvər sələflərinin ənənələrini davam etdirən xanımlarımızın ölkənin müasir simasının müəyyənləşməsinə yönəlmiş çoxsaylı nailiyyətləri müstəqillik salnaməmizin qürurverici səhifələridir.

Əminəm ki, qadınlarımız gənc nəslin Vətənə və milli ideallara sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, ictimai-mənəvi mühitimizə yeni töhfələr bəxş edəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2026-cı il

## Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

*Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər



dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması

5 mart tarixində İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktları həyata keçirilib. Pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisində mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirlərini hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq.

## Azərbaycan XİN Naxçıvana dron hücumları barədə bəyanat yayıb, İran səfiri nazirliyə çağırılıb

*Martın 5-də günorta radələrində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib.*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) yaydığı bəyanatda bildirilib.

Qeyd edilib ki, bir ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

"Hava Limanının binasına zərər dəyməsi və iki nəfər mülki şəxsin xəsarət alması ilə nəticələnən İran İslam Respublikası ərazisindən həyata keçirilən bu dron hücumlarını qətiyyətlə pisləyirik.

Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və regionda gərginliyin artmasına xidmət edir.

İran İslam Respublikası tərəfindən qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsini, buna izahat verməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməyi tələb edirik.

Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır", - deyə bəyanatda vurğulanıb.

Bildirilib ki, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilu Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinə kəskin etiraz bildirilərək, müvafiq etiraz notası təqdim ediləcək.

## Bayramınız mübarək olsun, əziz qadınlar!

Azərbaycanda qadının müasir dövrdə cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz ənənələrinə sədaqətinə, həm də dövlətimizin yürütdüyü siyasətdə fəal iştirakına görə müəyyənləşdirilir. Qadınlarımız hər zaman zəkası, sədaqəti, qəhrəmanlığı, eləcə də digər müsbət keyfiyyəti ilə tanınıb. Tariximizin bütün dövrlərində Azərbaycan qadını xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini verib. Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüş əməliyyatlarında Azərbaycan qadını da fəal iştirak edib, igidlik və fədakarlıq nümunələri göstərib. Bu müqəddəs amal naminə neçə qadın şəhid olub, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bu gün də Azərbaycan Ordusunun qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə qadın Vətən qarşısında öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirir. Əməkdaşlarımız 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə əlaqədar ordu sıralarında xidmət edən və mülki işlərdə çalışan qadınlarımız ilə görüşüb, onların ürək sözlərini qələmə alıblar.

**"Azərbaycan Ordusu"**

( 4-cü səhifədə)

# Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

(Əvvəli 1-ci səhifədə)



İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni, bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yən, bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "Dəmir yumruğ"umuzu görəcək.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması

İran İslam Respublikası silahlı qüvvələrinin Baş qərargahının İranın bütün ölkələrin, xüsusən də müsəlman və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşdığını bəyan etməsi və bu xüsusda İran tərəfindən Azərbaycana qarşı pilotsuz uçuş aparatları ilə bu gün törədilmiş hücumları təkzib etməsi heç bir halda məqbul sayıla bilməz.

Texniki vasitələrlə təsbit edilmişdir ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb.

Qeyd olunanları nəzərə alaraq, İran İslam Respublikasının silahlı qüvvələrindən aşkar inkarçılığa son qoymağı, baş vermiş hadisəyə görə üzrxahlıq ifadə etməyi və İranın aidiyyəti qurumları tərəfindən günahkarların cəzalandırılmasını gözləyirik.

## Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub

Martın 5-də Türkiyə milli müdafiə naziri Yaşar Gülerin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla telefon danışığı olub.

Müdafiə Nazirliyi xəbər verir ki, tərəflər arasında İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktları müzakirə olunub.

Nazirlər, həmçinin ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

## Gürcüstanın müdafiə naziri Azərbaycanın müdafiə nazirinə zəng edib

Martın 5-də Gürcüstanın müdafiə naziri İrakli Çikovaninin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla telefon danışığı olub.

Müdafiə Nazirliyi xəbər verir ki, tərəflər, ölkələrimiz arasında əlaqələr, regiondakı cari vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

## Türkiyə, Macarıstan və Səudiyyə Ərəbistanının Baş Qərargah rəisləri ölkəmizə dəstəklərini bildiriblər

Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin və Macarıstan Müdafiə Qüvvələrinin Baş Qərargah rəisləri ordu generalı Selçuk Bayraktaroğlu və general Qabor Böröndi arasında telefon danışıqları olub. Danışıqlar Türkiyə və macarıstanlı həmkarların təşəbbüsü ilə baş tutub.

Müdafiə Nazirliyi xəbər verir ki, tərəflər ölkələrimiz arasında hərbi əməkdaşlıq, habelə regiondakı vəziyyət və təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.

İran İslam Respublikasının silahlı qüvvələrinin pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisindəki mülki infrastruktura edilən hücumlara toxunan baş qərargah rəisləri, bunun beynəlxalq hüquq normalarına zidd olduğunu xüsusilə qeyd ediblər.

Həmçinin Səudiyyə Ərəbistanı Krallığının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Faiyad bin Hamed Al Rovaili Azərbaycandakı hərbi attaşesi vasitəsilə ölkəsinin bu tip hücumlara qarşı olduğunu diqqətə çatdıraraq hər zaman zəruri dəstək verməyə hazır olduğunu bildirib.

General-polkovnik Kərim Vəliyev tutduqları mövqeyə və göstərdikləri dəstəyə görə həmkarlarına minnətdarlığını ifadə edib.

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə müdafiə nazirinin təbriki

Hörmətli xanımlar!

Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadını əsrlər boyu şərəfli və müqəddəs ana adını uca tutmaqla müdrikliyi, işgüzarlığı, saflığı və mübarizliyi ilə tariximizə ən parlaq səhifələr yazmışdır. Respublikamızın ictimai-siyasi, mədəni həyatında, cəmiyyətdə fəal iştirak edərək Vətənin müdafiəsində və dövlət quruculuğunda xüsusi bacarıq, istedad nümayiş etdirməklə yanaşı, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə cəsarət və qorxmazlığı ilə də seçilmişdir.

Dövlətçilik tariximizin şərəfli səhifəsi sayılan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olan qadınlara seçmək və seçilmək hüququnun verilməsi cəmiyyətdə onların yerini, xüsusi hörmətə və nüfuza malik olduqlarını bir daha əks etdirir. Respublikamız dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan qadınının cəmiyyətdə əvəzsiz rolu bir daha təsdiqləndi. Milli dövlət quruculuğu prosesində, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılmasında fəal iştirakı Azərbaycan qadınının dünyagörüşünün zənginliyinin, intellektual səviyyəsinin yüksək olmasının bariz nümunəsidir.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə qadınlarımız da fəal iştirak edib, qəhrəmanlıq, fədakarlıq nümunələri göstəriblər. Azərbaycan qadını gənc nəslin Vətənə, dövlətə sevgi, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyə olunmasına öz böyük töhfələrini verib və onların xalqa, cəmiyyətə layiqli övlad kimi formalaşmasında əsl vətəndaş, ana kimi əməyini əsirgəməyib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərimizə, humanizm ideyalarına xidmət edən və tarixi ənənələrimizi qoruyub yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunmasında, eləcə də ölkəmizin müdafiə qüdrətinin artırılmasında, bərpa-quruculuq işlərində Azərbaycan qadını bu gün də yaxından iştirak edir, Böyük Qayıdışa öz layiqli töhfələrini bəxş edir.

Mərhəməti, humanistliyi, xeyirxahlığı və vətənpərvərliyi ilə fərqlənən Azərbaycan qadını ordu quruculuğu prosesində də yaxından iştirak edir. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən, həmçinin mülki işlərdə çalışan qadınlarımızın əməyi, Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirmələri yüksək qiymətləndirilir.

Şəhid analarına, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların həyat yoldaşlarına, təqaüddə olanlara, əsgər analarına bayram təbriklərimi çatdırır, yüksək hörmət və ehtiramımı bildirirəm.

İnanıram ki, bütün sahələrdə olduğu kimi, ordu sıralarında xidmət edən, dövlət qulluğunda və mülki işlərdə çalışan qadınlarımız bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklər. Sizə cansağlığı, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək, əziz xanımlar!

Hörmətlə,

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

8 Mart - Beynəlxalq Qadınlar Günüdür

# Azərbaycan qadını - qəhrəmanlıq və fədakarlıq nümunəsi

8 Mart - Beynəlxalq Qadınlar Günü qadınların hüquq və azadlığı uğrunda aparılan mübarizənin nəticəsi kimi tarixə düşmüşdür. Bu günün xüsusi qeyd olunması ideyası ilk dəfə 1910-cu ildə Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilən beynəlxalq qadın konfransında irəli sürülmüşdür. Alman ictimai xadimi Klara Setkin qadınların hüquqlarının müdafiəsi və onların cəmiyyətdə bərabər mövqeyə malik olması məqsədilə xüsusi bir günün təsis edilməsini təklif etmişdir. Sonrakı illərdə bu təşəbbüs bir çox ölkələr tərəfindən dəstəklənmiş və 8 Mart - Beynəlxalq Qadınlar Günü kimi qeyd olunmağa başlanmışdır. Bu tarixi qərar Azərbaycanda da qadınların ictimai və siyasi həyatda fəal iştirakına şərait yaratmışdır.

Sonrakı dövrlərdə qadınlar dövlət idarəçiliyində - elm və təhsil sahəsində, həmçinin ölkənin müdafiəsi zamanı mühüm işlərin həyata keçirilməsində yaxından iştirak ediblər. Bu gün də Azərbaycan qadınları tarixdə olduğu kimi, dövlət quruculuğunda, ordunun inkişafında və cəmiyyətin tərəqqisində fəal iştirak edərək ölkənin gələcəyinə töhfələr verirlər.

Azərbaycan qadını həm müharibə, həm də sülh dövründə Vətəninə sədaqətli olduğunu nümayiş etdirmişdir. Tariximizdə qəhrəman qadınlarımızın adları xüsusi hörmətlə çəkilir.

Azərbaycan qadını deyəndə Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı yada düşür. Bu dastanda qəhrəmanlıq nümunəsi olan Azərbaycan qadınlarının savaş meydanında göstərdikləri şücaət öz əksini tapıb. Eyni zamanda, Möminə Xatun, Sara Xatun, Tomris, Nigar, Həcər, Tutu Bikə kimi qəhrəmanlıq nümunəsi olan qadınlarımız xalqımızın yaddaşında müdriklik və cəsarət simvolu kimi yaşayırlar. Onlar xalqımızın qeyrət, namus rəmzidirlər.

XX əsrdə Azərbaycan qadınları dövlət quruculuğunda, mədəniyyət və elm sahələrində mühüm uğurlara imza atmışlar. Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə qadınlara seçki hüququnun verilməsi Azərbaycan cəmiyyətində gender bərabərliyinin formalaşmasına böyük töhfə olmuşdur.

Azərbaycan qadınları Cümhuriyyət dövründə ölkəmizin ictimai-siyasi həyatında və Vətənimizin müdafiəsində yaxından iştirak etmiş, öz vəzifəsini şərəflə yerinə yetirmişlər.

Qadınlarımız bu gün də öz dərin zəkası, biliyi, savadı ilə cəmiyyət qarşısında üzərlərinə düşən öhdəlikləri yüksək bacarıq qabiliyyəti ilə yerinə yetirirlər. Azərbaycan qadınları öz mədəniyyəti, davranışı ilə bütün dünya qadınlarından fərqlənirlər. Onlar yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalaraq, ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Ölkəmizdə qadın siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Ulu Öndərin ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırması onların hərtərəfli fəaliyyətinə müsbət təsirini göstərib. Azərbaycan qadınına göstərilən bu etimad, bu dəyər onları liderlik səviyyəsinə qədər yüksəldib. Ümummilli Lider Heydər Əliyev qadın siyasətini dəstəkləyir və onların fəaliyyətini hər zaman yüksək dəyərləndirərək deyirdi: ... "Qadınlar cəmiyyətdə çox həlledici təbəqədir. Qadınlar ailənin özəyidir. Qadınlar ailəni saxlayan bir vasitədir...".

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən,




cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir. Kişi ilə qadın eyni hüquq və azadlığa malikdir. Bu azadlıq da öz növbəsində ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində gender siyasətinin daha da güclənməsinə səbəb olur.

1995-ci ildə keçirilmiş IV Ümumdünya Qadın Konfransında Azərbaycan Respublikası Pekin Bəyannaməsi və Fəaliyyət Platformasını qəbul etmişdir. Bu Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasıdır. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını, sülhə və gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdir.

1998-ci il sentyabrın 25-də keçirilən Azərbaycan qadınlarının ilk qurultayı dövlət qadın siyasətinin tarixində mühüm hadisə idi. Qurultayda respublikada cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə Azərbaycan qadınlarının daim milli dövlətçilik mövqeyindən çıxış etdiklərini nümayiş etdirən mühüm məsələlər müzakirə olunmuşdur. Həmin ildən etibarən hər beş ildən bir keçirilən bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar və böyük hadisələrdən biri kimi qiymətləndirilir.

Ölkəmizdə dövlət qadın siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən yeni meyarlara uyğun yüksək səviyyədə davam etdirilir.

Dövlət başçısının rəhbərliyi ilə yeni siyasi və iqtisadi sahədə sürətlə inkişaf edən ölkəmiz lider dövlətə çevrilmişdir. Prezident İlham Əliyev tərəfindən Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atılmışdır. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin olunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verərək bir çox stereotiplərin qırılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkədə gender bərabərliyinin təmin olunması istiqamətində bir sıra əsaslı işlər həyata keçirilmişdir. Belə ki, normativ hüquqi baza formalaşdırılmış və institusional mexanizmlər yaradılmışdır. Gender amilinin ümumi siyasətə daxil edilməsi üzrə səylər qadınların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində təmsil olunmalarına imkan vermişdir.

Son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin məşğulluğunun artırılması, sahibkarlığın inkişafı qadınların iqtisadi imkanlarının genişlənməsinə təkan vermiş və onlar arasında işsizlik səviyyəsinin azaldılmasına səbəb olmuşdur. Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunurlar. Qadınlar ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkədə idmanın inkişafına böyük töhfələr verirlər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli parlaq fəaliyyəti həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunun daha da yüksəklərə ucalmasına səbəb olub. Mehriban xanım Əliyevanın xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliğinə səbəb olub. Ölkənin "yumşaq güc" siyasətinin təcəssümü olan Mehriban xanım Əliyevanın humanitar layihələri ölkəmizə yeni dostlar qazandırır, xeyriyyəçilik tədbirləri bir sıra dövlətləri, qitələri əhatə edir. Heydər Əliyev Fondu uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət hər şeydən əvvəl dünyada Azərbaycanın təqdimatı və təbliğidir. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunması Azərbaycan qadınının mərhəmət və xeyirxahlığının, zəngin mənəvi-intellektual və yüksək əxlaqi dəyərlərə malik olduğunun bariz nümunəsidir.

Ölkəmizdə qadın siyasətinin effektivliyini təmin etmiş bir sıra amillər həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Ölkənin siyasi, iqtisadi, sosial və mədəni həyatında qadınların rolunu artırmaq, Azərbaycan Respublikasının 1995-ci il iyunun 30-da qoşulduğu BMT-nin "Qadınlara münasibətdə ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasından irəli gələn öhdəliklərini daha geniş miqyasda həyata keçirmək üçün 1998-ci il 14 yanvar tarixində "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Ulu Öndər Heydər Əliyev tərəfindən 6 mart 2000-ci il tarixində "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalanmışdır. Fərmanla Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması tapşırılmışdır. Fərmanın icrasını təmin etmək məqsədilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli 176 nömrəli Qərarına əsasən, nazirlik, komitə, şirkət, konsern və digər dövlət müəssisə və təşkilatlarında daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq gender məsələləri üzrə məsul şəxslər təyin edilmiş, həmçinin "Qaçqın və məcburi köçkün qadınların münasib işlə təmin edilməsi Proqramı" təsdiq edilmişdir. Bu Qərar bütün dövlət orqanları (qurumları) və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyətinin təkmilləşdirilməsinə, həyata keçirdikləri siyasətlərə gender amilinin daxil edilməsinə imkan vermişdir.

2000-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti 2000-2005-ci illər üçün "Azərbaycan Respublikasında Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı"nı qəbul etmişdir. Milli Fəaliyyət Planı milli prioritetləri nəzərə alaraq, siyasət, iqtisadiyyat, sosial, mədəniyyət, təhsil və səhiyyə sahələrini, eləcə də qaçqın və məcburi köçkün qadınların problemlərini əhatə etmişdir.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının qanunu 2006-cı il 10 oktyabr tarixində qəbul olunmuşdur. Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsinə xidmət edir.

"Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Milli Fəaliyyət Planında qadınların ictimai həyatda fəallığının artırılması, təhsil, məşğulluq, iqlim dəyişiklikləri ilə mübarizə və media sahələrində gender aspektlərinin nəzərə alınması, bu məqsədlə normativ hüquqi bazanın, institusional mexanizmlərin təkmilləşdirilməsi və gender bərabərliyi mədəniyyətinin təbliğinin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Beynəlxalq təcrübədən yararlanmaqla gender bərabərliyinə dair normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender bərabərliyinə dair dövlət siyasətinin həyata keçirilməsi üzrə qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, gender bərabərliyini təbliğ və təşviq edən vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə dəstək göstərilməsi, qadınların ictimai fəallığının artırılmasına dəstək göstərilməsi, əmək bazarında gender fərqlərinin aradan qaldırılması məqsədilə qadınların rəqabət qabiliyyətinin artırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan qadınların sosial-iqtisadi ehtiyaclarına dair tədqiqat aparılması və s. məsələlərin həlli yolları göstərilmişdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Azərbaycan qadını tarix boyu müqəddəs, şərəfli adı uca tutaraq öz mübarizliyi ilə tanınmış, dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə yanaşı, döyüş meydanlarında da şücaət göstərmişdir.

Cəmiyyətin bütün sahələrində qadınlar aktiv fəaliyyət göstərirlər. Belə ki, onlar ordu quruculuğu sahəsində də şərəf və qürurla xidmət edirlər. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə də qadınların xidməti danılmazdır. Onlar Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

Qadın anadır, bacıdır, həyat yoldaşıdır... Bu gün Azərbaycan qadınının adı hörmətlə, şərəflə çəkilir. Onlar bu adı davranışları, fəaliyyətləri ilə qazanıblar. Bu şərəfli adın sahibi olan qadınlarımızı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara bu müqəddəs adı həmişə uca tutmalarını arzulayırıq. Bayramınız mübarək, əziz qadınlar!

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Bayramınız mübarək olsun, əziz qadınlar!



(Əvvəli 1-ci səhifədə)

**Tibb xidməti kapitanı Sara Quliyeva:**

- Azərbaycan qadını tarix boyu ailənin sütunu, Vətənin dayağı, mənəvi dəyərlərimizin qoruyucusu olub, həm ana kimi övlad yetişdirir, həm də cəmiyyətin müxtəlif sahələrində fədakarcasına çalışaraq dövlətimizin inkişafına töhfə verir. Başda şəhid anaları olmaqla, həkimi, müəllimi, zabiti bu torpağın ləyaqətli simasını təcəssüm etdirir.

Həm Azərbaycan xanımı, həm hərbçi, həm də həkim olaraq Vətənə və cəmiyyətə xidmət etmək mənim üçün böyük qürur və məsuliyyətdir. Qadınları həyatın əksər sahələrində fədakarlıq və məsuliyyət nümunəsi kimi göstərirlər. Bizim gücümüz həm də qayğı göstərmək, ümid vermək və insanlara dəstək olmaqdan gəlir. Tibb sahəsində çalışan qadın zabit olaraq, üzərimə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır və bu işi bir ana, bacı və doğma olaraq özümə vətəndaşlıq borcu bilirəm. Arzu edirəm ki, bütün qadınların həyatı sevinc, sağlamlıq və uğurlarla dolu olsun. Bayramınız mübarək, əziz və dəyərli xanımlar!



**Tibb xidməti kapitanı Süreyya Yaqubova:**

- Azərbaycan Tibb Universitetinin məzunu kimi həkimlik peşəsini yalnız sənət deyil, həm də vicdan və məsuliyyət andı hesab edirəm. 2009-cu ildən etibarən xidmət etdiyim səhiyyə sahəsində qadın iradəsinin və mərhəmətinin gücünü hər gün daha dərindən hiss edirəm. Həkim xalatını hərbçi forması ilə birlikdə daşımaq həm çətin, həm də məsuliyyətlidir. Lakin igid, mərd, qorxubilməz oğullarımızın sağlamlığının keşiyində dayanmaq ikiqat şərəflidir, qürurvericidir.

Vətən müharibəsi zamanı Ağdam rayonunda yerləşən hərbi hospitalda cərrah kimi fəaliyyət göstərmək, yaralı hərbçilərimizin sağlamlığı uğrunda çalışmaq həyatımın ən qürurlu səhifələrindəndir. Buna görə müdafiə naziri tərəfindən təşəkkür elan edilməsi mənim üçün böyük mənəvi qiymətdir.

Bu gün Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında çalışaraq həm kollektivimizin birliyinə, həm də gənc həkimlərin yetişməsinə töhfə verməyə çalışıram. Üç övlad anası olaraq inanıram ki, qadının gücü onun həm ailəsinə, həm də Vətəninə sədaqətlə xidmət edə bilməsindədir.

Qalib ordunun zabiti kimi hər bir Azərbaycan qadınını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara cansağlığı, ailə səadəti, işlərində müvəffəqiyyətlər arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Gülər Həmidova:**

- Bakı şəhərində anadan olmuşam. 10 ildən artıqdır ki, Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində kargüzar vəzifəsində xidmət edirəm. Xidmət etdiyim bölmənin nizami hissəsinə daxil olan sənədləri qeydiyyata alıram, qovluqlara əlavə edirəm və xaric olunan sənədlərin vaxtında göndərilməsini təmin edirəm.



Mülki həyatda müxtəlif sahələrdə çalışsam da, sonda özümü hərbidə gördüm. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən kursa müraciət etdim. Lazım olan sənədləri toplayıb imtahan verdim. Kursu bitirəndən sonra məni "N" hərbi hissəsinə kargüzar vəzifəsinə təyin etdilər. Qadın hərbi qulluqçu kimi xidmətimin ilk vaxtları çətin olsa da, sonradan şəraitə uyğunlaşdım. Sənədləşmə işini öyrəndim. Burada diqqət, məsuliyyət və çalışqanlıq tələb olunur. İlk gündən də üzərimə düşən vəzifəni öyrənməyə başladım. Bu gün artıq vəzifəmlə bağlı hər bir işi lazımınca bilirəm. Mən hərbi geyim daşımaqdan qürur duyuram. Bu peşə qadın üçün çətin olduğu qədər də, şərəflidir.

Beynəlxalq Qadınlar Günü münasibətilə öncə bizi dünyaya gətirən anaları ürəkdən təbrik edirəm. Qadınlarımızın, qızlarımızın hər zaman cəsarətli, vətənpərvər və Vətənə layiqli xanımlar olmasını arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Aysel Rəcəbova:**

- 2014-cü ildə Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq "rabitəçi" ixtisası üzrə kursu bitirmişəm. Hərbi xidmətə gəlməmişdən əvvəl torpaqlarımız Ermənistan silahlı qüvvələrinin işğalı altında idi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza verdiyi əks-hücum əmri hərbi xidmətimin ən gərgin və şərəfli dövrü olub.

Müharibə zamanı ölkəmizin Hava Hücumundan Müdafiə bölmələri də digər qoşun növləri kimi yüksək döyüş hazırlığı vəziyyətinə gətirilmişdi. O zaman üzərimə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışırdım.



Ölkəmizin hava məkanını ciddi nəzarətdə saxladıq. Düşmən tərəfindən gözlənilən hər bir təhlükəni vaxtında aşkar edərək komandanlığa məlumat verdik.

30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarımızı azad edən ordumuzun bölmələri ərazilərimizi azad etdikcə sevinirdik. Birbaşa döyüş əməliyyatlarında iştirak etməsəm də, arxa cəbhədə xidmətim olub. Qadın hərbi qulluqçu kimi bundan qürur duyuram.

Beş ildən çoxdur ki, müharibə bitib. Analarımız 8 Mart - Beynəlxalq Qadınlar Gününü sevinclə qarşılayırlar. Mən də bu münasibətlə ordumuzda xidmət edən bütün qadınlarımızı ürəkdən təbrik edirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Tünzalə Quliyeva:**



- Şəmkir rayonundanam. 12 ildir ki, Vətənə xidmət edirəm. Yoluxucu xəstəliklər bölməsində baş tibb bacısı olaraq xidmətdəyəm. 44 günlük Vətən müharibəsi zamanı ön cəbhədə yaralı zabit və əsgərlərimizə tibbi qulluq göstərmişəm. İki övladım var. Babam Birinci Qarabağ müharibəsinin veteranıdır və bu ailə mirası mənim üçün həm qürur, həm də məsuliyyətdir.

Azərbaycan qadını gücün, mərhəmətin və sədaqətin vəhdətidir. Qadınlarımız həm ailədə ana qayğısını, həm cəmiyyətdə vətənpərvər mövqeyi, həm də orduda peşəkarlığı ləyaqətlə nümayiş etdirirlər. Hərbçi qadın olmaq yalnız forma daşımaq deyil, çətin anlarda ümid olmaq, yaralıya şəfa, silahdaşa dayaq olmaq deməkdir.

Ölkəmizdə qadınlara göstərilən diqqət və dəyər hər zaman yüksək olub. Dövlətimizin qadınların təhsilinə, sosial müdafiəsinə, peşəkar inkişafına və hərbi sahədə fəaliyyətinə yaratdığı imkanlar bu qayğının real göstəricisidir. Bu gün Azərbaycan qadını orduda, səhiyyədə, elmdə və idarəetmədə, eləcə də cəmiyyətimizin inkişafına mühüm töhfələr verir.

Bu əlamətdar gün - 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan qadınlarını, xüsusilə də hərbçi xanımları ürəkdən təbrik edirəm.

Əziz xanımlar, sizlərə möhkəm cansağlığı, ailə səadəti, peşə yolunuzda uğurlar arzulayıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İlahə Ağayeva:**

- Hərbçi olmağım özümə inamı artırıb. Düşünürəm ki, qadın istənilən sahəni gözəlləşdirir və özünü hər sahədə doğrultmağı bacarır.



Bu gün tək ailəm üçün deyil, Vətənim üçün də xidmət edirəm. 8 mart nəvazişin, diqqətin bol olduğu gündür. Bu gün mənim üçün ailəm və kollektivimlə bir yerdə olmaq dəyərlidir. Qadın zərifdir, amma zəif deyil. Ən böyük gücü qəlbində daşıyır. 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xanımlarımıza sağlamlıq, sevgi arzulayıram. Qoy üzünüzdən təbəssüm əskik olmasın.

**Gültəkin Qurbanova:**

- Hərbi təşkilatda mülki işçi kimi çalışmaq məsuliyyətli və intizamlı olmağı öyrədir. Burada dəqiq və dözümlü olmaq əsas şərtdir. Kitab çapı spesifik sahə olduğundan burada peşəkarlıq və bacarıq çox vacibdir. Mən də dəyərli kollektivimlə birlikdə uzun illərdir bu işdə fəaliyyət göstərirəm.



Mənim üçün 8 mart qadının görünən və görünməyən zəhmətinin dəyər gördüyü gündür, onun gücünü hiss etdirən gündür. Qoy həyatımızda hörmət və anlayış təkcə bu gün yox, hər zaman olsun.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Bahar Alıyeva:**



- Hərbçi olmaq insanı həm fərd, həm də xarakter olaraq möhkəmləndirir, ona güclü olmağı öyrədir. Nəşriyyat sahəsi üzrə çalışan biri olaraq demək istərdim ki, rəngayırma maraqlı və diqqət tələb edən sahədir. Mən öz işimi sevərək yerinə yetirirəm. 8 mart mənim üçün qadın həmrəyliyi deməkdir. Fəxr edirəm ki, bu bayramı həm hərbçi, həm də ana olaraq qeyd edirəm. Arzu edirəm ki, hər qadın öz dəyərini bilsin, öz gücünə şübhə etməsin.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Səbinə Məmmədova:**

- 13 avqust 1990-cı ildə Yevlax şəhərində anadan olmuşam. Həmin rayonda Şıxəli Qurbanov adına 8 nömrəli tam orta məktəbi bitirmişəm. Xidmətim dövründə göstərdiyim səy və bacarıqlara görə bir çox fəxri fərman və təşəkkürnamələrlə təltif olunmuşam.

Azərbaycan qadını hər zaman mərdliyin, sədaqətin və fədakarlığın simvolu olub. Tariximizin bütün mərhələlərində qadınlarımız həm ailənin dayağı, həm də cəmiyyətin inkişafına töhfə verən qüvvə kimi çıxış ediblər.



Bu gün isə Azərbaycan qadını həm müəllimdir, həm həkimdir, həm alimdir, həm də hərbçidir.

Hərbçi qadın olmaq böyük məsuliyyət və qürurdur. Biz həm ana qayğısını, həm bacı şəfqətini, həm də əsgər iradəsini öz simamızda birləşdiririk. Çiyin-çiyinə xidmət etdiyimiz silahdaşlarımızla birlikdə Vətənimizin təhlükəsizliyi naminə əzm və inamla çalışırıq.

Ölkəmizdə qadınlara göstərilən diqqət və qayğı daim yüksək səviyyədədir. Dövlət tərəfindən qadınların hüquqlarının qorunması, onların ictimai-siyasi və hərbi sahədə fəal iştirakı üçün geniş imkanlar yaradılıb. Azərbaycan qadını bu gün dövlət idarəçiliyində, orduda və müxtəlif sahələrdə layiqincə təmsil olunur. Bu, qadına verilən dəyərin bariz nümunəsidir.

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan qadınlarını, xüsusilə də Vətənə şərəflə xidmət edən hərbçi xanımları ürəkdən təbrik edirəm. Sizlərə möhkəm cansağlığı, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram.

(Ardı 5-ci səhifədə)

# Bayramınız mübarək olsun, əziz qadınlar!



(Əvvəli 4-cü səhifədə)

**Gizir Gülnar Budaqova:**

- Biz hərbçi qadınlar bu sahədə intizam, diqqət və məsuliyyətlə çalışaraq ordumuzda görülən gündəlik işlərin düzgün və səmərəli aparılmasına töhfə verməyə çalışır və bu işi özümüz üçün müqəddəs vəzifə bilirik. Hər gün gördüyümüz işlər böyük sistemin vacib bir hissəsini təşkil edir. Vətənə xidmət etmək və bu şərəfli missiyada yer almaq mənim üçün qürurdur. 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımları səmimi-qəlbdən təbrik edirəm. Arzu edirəm ki, hər bir qadının zəhməti qiymətləndirilsin, həyatları sevinc, uğur və xoşbəxtliklə dolu olsun.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ülkər Qarayeva:**

- Mən əslən Şirvan şəhərindənəm. 2014-cü ildən Azərbaycan Ordusunda hərbi xidmətdəyəm. Bu gün mənim üçün sadəcə bir bayram deyil, həm də xidmətimizin və Vətənə sədaqətimizin qeyd olunduğu xüsusi bir gündür. Hərbi xidmət bizə özümüzü daha güclü hiss etmək, Vətənimizə qulluq etməyin dəyərini daha dərindən anlamaq imkanı yaradır. Azərbaycan qadını harada çalışmasından asılı olmayaraq öz ləyaqəti, iradəsi, məsuliyyəti və mənəvi gücü ilə hər zaman seçilir. Bu gün mən orduda xidmət edən xanımlarla bərabər, həm də şəhid analarını və vətənpərvər anaları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirəm. Məhz onların böyüdüb boya-başa çatdırdıqları igid oğulların qəhrəmanlığı sayəsində biz bu gün azad və firavan bir ölkədə yaşayırıq. Bu azadlığımıza görə şəhidlərimi-



zə və onları yetişdirən analara hər zaman borcluyuq. Biz yalnız hərbi formanı daşıyan insanlar deyilik, həm də Vətənə sədaqətin, dözümlülüyün və fədakarlığın simvoluyuq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Günel Abdullayeva:**

- Azərbaycan qadını təkcə ailənin deyil, bütövlükdə xalqın mənəvi dirəyidir. Zaman dəyişsə də, Azərbaycan qadınının ləyaqəti, mərdliyi, ailəyə və Vətənə olan bağlılığı dəyişmir.

Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında xidmət edirəm. Bu sahəni öz arzumla seçmişəm və ötən illər ərzində bu qərarın məsuliyyətini, şərəfini daim hiss etmişəm.

Aprel döyüşləri, Tovuz döyüşləri, Vətən müharibəsi və antiterror əməliyyatı zamanı yaralı hərbçilərimizin müayinə-



sində iştirak etmək, onların sağlamlığı naminə çalışmaq həyatımın ən məsuliyyətli anları olub. Hər bir rentgen görüntüsünün arxasında bir insan taleyi, bir ailənin ümidinin dayandığını yaxşı bilirəm.

Qadın həm evində, həm də xidmət yerində məsuliyyətini ləyaqətlə daşıyarsa, cəmiyyət daha sağlam və möhkəm olur.

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadın hərbi qulluqçularımızı, şəhid analarını və xanımlarını, döyüşlərdə sağlamlıqlarını itirən hərbçilərimizin ömür-gün yoldaşlarını, əsgər analarını, hərbi qulluqçularımızın ana və bacılarını, qızlarını ürəkdən



təbrik edir, onlara ən xoş və səmimi arzularımı çatdırıram.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Xalidə Əbdülrəhmanova:**

- 20 iyun 1988-ci ildə Bakı şəhərində anadan olmuşam. Əslən İsmayıllı rayonundanam. Artıq 12 ildir ki, Azərbaycan Ordusunun sıralarında xalqımıza, Vətənimizə, dövlətimizə ləyaqətlə, şərəflə xidmət edirəm. Hərbi peşəyə sevgi və bağlılıq doğulub böyüdüyüm ailədən gəlir. Atam Azərbaycan Ordusunun ilk kadr zabitlərindən biri - kapitan Rəvayət Cəbiyev Birinci Qarabağ müharibəsində Ağdərə istiqamətində gedən döyüşlər zamanı ağır yaralanıb. O, aldığı ağır xəsarətlərdən sonra tam sağlamlığına qovuşa bilmədi. Çox erkən bizi tərk etdi, dünyasını dəyişdi. Bu gün mən çox qürurluyam ki, atamın yolunun davamçısıyam. O da Vətənimizə çox bağlı insan olub. Torpaqlarımızda müharibə başlayanda, Vətənimizin dar günündə o da digər azərbaycanlı zabit yoldaşları ilə birlikdə Vətənimizə geri dönüb. Bütün bunlar uşaqlıq xatirələrimdə dərin iz qoyub. Respublikamızın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən ağır döyüşlərdə yaxın qohumlarımdan Eldar Aslanov Birinci Qarabağ müharibəsində, Samid Əliyev isə 44 günlük Vətən müharibəsi zamanı şəhid oldular. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Hərbi peşəyə dərindən bağlıyam. Elə bilirəm ki, atamın yarım qalmış arzularını Vətənə şərəfli xidmətimlə mən davam etdirirəm. Həyat yoldaşım da baş gizirdir. 8 Mart - Beynəlxalq Qadınlar Günü mənim üçün əlamətdar gündür. Çünki ailəmizdə üç qız övladı böyüyür. Ana-bacılarımızın, bütün Azərbaycan xanımlarının bayramı mübarək olsun!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Albina Süleymanova:**



- Əslən Bakı şəhərindənəm. 2014-cü ildən hərbi xidmətdəyəm. Mənim üçün orduda xidmət etmək peşədən əvvəl şərəf və məsuliyyətdir. Bu yolu seçərkən Vətənə xidmət etməyin verdiyi hiss ilə hər zaman qürur duymuşam. 8 mart mənim üçün xüsusi günlərdən biridir. Orduda hər vəzifə və hər məsuliyyət bir sınaqdır. Lakin bu sınaqlar bizi daha da inkişaf etdirir, öz bacarıqlarımızı nümayiş etdirmək və əməkdaşlıq ruhunu gücləndirmək imkanı yaradır. Mən inanıram ki, qadınlar hər sahədə olduğu kimi, orduda da öz bacarıqları ilə böyük uğurlara imza ata bilirlər.

8 mart günü ailəmizin və yaxınlarımızın diqqətini hiss etmək bizim üçün olduqca xoşdur. Eyni zamanda, həmkarlarımızın diqqəti və dəstəyi də xüsusi əhəmiyyət daşıyır. Birbirimizin yanında olmaq, bu günü birlikdə qeyd etmək həm xoş, həm də qürurvericidir.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Esmira Paşayeva:**

- 6 fevral 1985-ci ildə Bakı şəhərində doğulmuşam. Sabunçu rayon 271 nömrəli orta məktəbin məzunuyam. Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişəm. Sadə, zəhmətkeş bir ailənin övladıyam. Ailədə üç bacı olmuşuq. İki bacım müəllim, mən isə hərbçiyəm. Hərbçi olmaq, hərbi forma geyinmək ən böyük arzum olub. Bu peşə müqəddəs və şərəfli peşədir. Hələ orta məktəb illərində hərbi hazırlıq dərslərində fəal iştirak edərək ilkin hərbi vərdişlərə yiyələnmişəm. Artıq 10 ilə yaxındır ki, Azərbaycan Ordusunun sıralarında Vətənimə xidmət edirəm. Hərbçi sözü harada varsa, orada məsuliyyət var. Xidmətdə olduğum bu illər ərzində vəzifə borclarımı dərindən mənimsəyib, xidmətimə məsuliyyətli olmuşam. Dərslərdə, təlimlərdə ixtisasım üzrə qazandığım yeni bilikləri təcrü-



bədə tətbiq edirəm. "N" hərbi hissəsində radiotelefonçu vəzifəsində xidmət edirəm. 44 günlük Vətən müharibəsi, eləcə də ordumuzun post-müharibə dövründə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları zamanı gecə-gündüz xidmət yerimizdə olaraq, dayanıqlı və fasiləsiz rabitə əlaqələrinin təminatı üçün əlimizdən gələni əsirgəmədik. Bu gün müasir tələblərə cavab verən rabitə vasitələri və avtomatik idarəetmə sistemləri ilə çalışmaq işimizi daha da asanlaşdırır, məlumatların vaxtında ünvana çatdırılmasında müsbət rol oy-



nayır. Xidmətimdə qazandığım nailiyyətlərə görə komandanlığın dəfələrlə fəxri fərmanlarına, təşəkkürlərinə layiq görülmüşəm. Azərbaycan Ordusunda xidmət edən və çalışan bütün xanım əməkdaşları, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, onlara ailə səadəti, işlərində uğurlar arzulayıram.

**Kursant Nərgiz Alıyeva:**

- Mən, Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan kursant kimi həyatımın ən məsuliyyətli və şərəfli yolunu seçdiyim üçün sevincliyəm. Bu yol yalnız peşə seçimi deyil, həm də Vətənə sədaqət andıdır. Qarşımda duran ali məqsəd gələcəkdə ordumuza layiqli zabit olmaq və ölkəmizə xidmət etməkdir. Bəzən deyirlər



ki, hərbçi olmaq çətin olduğu qədər də məsuliyyətlidir. Biz sübut edirik ki, qadınlar da bu məsuliyyətli peşədə güclü, iradəli və qətiyyətli ola bilərlər.

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları təbrik edirəm. Qadınların cəmiyyətimizdə tutduğu mövqe, onların gücü və iradəsi bizim üçün böyük nümunədir. İnanıram ki, gələcəkdə Azərbaycan Ordusunun peşəkar zabitləri kimi Vətənə sədaqətlə xidmət edərək qadınların bu şərəfli adını layiqincə doğruldacağıq.

**Kursant Günay Məmmədova**:

- Biz hərbi institutda təhsil alan qadın kursantlar olaraq seçdiyimiz yolun məsuliyyətini dərindən hiss edirik. Gələcəkdə zabit kimi Azərbaycan Ordusunun sıralarında xidmət etmək ən böyük və ali məqsədimizdir. Qalib ordunun formasını geyinmək bizim üçün şərəfdir. Qarşıda bizi uzun və məsuliyyətli xidmət yolu gözləyir. Bu yolda inamla və qürurla addımlayacağıq. 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün qadınları səmimi-qəlbdən təbrik edirəm.

**Günay Beybutova:**

- Hər gün Vətənə xidmət edən hərbçilərimizə qayğı göstərmək, onların sağlamlığı üçün çalışmaq mənim üçün həm qürur, həm də məsuliyyətdir. Yaralı və xəstə əsgərlərimizə kömək edəndə anlayıram ki, bizim işimiz də Vətənə xidmətin bir hissəsidir.

Oğlum bu gün kursantdır və gələcəkdə Vətənə layiqincə xidmət etmək üçün hazırlaşır. Onun hərbi yolu seçməsi mənim üçün böyük qürurdur. Həyat yoldaşım ərazi bütövlüyümüz uğurunda gedən əməliyyatda iştirak edib, döyüşlər zamanı yaralanaraq sağlamlığını



itirib. Ömrünün 15 ilini orduya və Vətənə həsr edib. Mən həm ana, həm həyat yoldaşı, həm də müqəddəs peşə sahibi olaraq bu gözəl bayram günü münasibətilə bütün qadınlara sağlamlıq, səadət, səbir və xoşbəxtlik arzulayıram.

Yeni nəşrlər

# “Əsgər marşına Aşiq qəhrəman” adlı kitabın II hissəsinin təqdimatı keçirildi



*Naxçıvan Muxtar Respublikasının Kəngərli rayon İcra Hakimiyyəti və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə şəhid Ülvi Cəfərovun əziz xatirəsinə həsr olunmuş gənc yazar İlkanə Hüseynovanın "Əsgər marşına Aşiq qəhrəman" adlı kitabın II hissəsinin təqdimatı və anım mərasimi keçirildi.*

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən Kəngərli rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov şəhidlərimizin göstərdikləri misilsiz igidlik nümunələrindən geniş bəhs etdi. O, vurğuladı ki, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi və xalq-ordu birliyi sayəsində mümkün olub. İcra başçısı onu da qeyd etdi ki, şəhidlərimizin şərəfli döyüş yolu dövlətimizin gücünün, xalqımızın yenilməz iradəsinin bariz nümunəsidir. Bildirdi ki, onların xatirəsinin daim uca tutulması, ailələrinə diqqət və qayğı göstərilməsi hər birimizin mənəvi borcudur. O, əlavə etdi ki, belə tədbirlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində, milli-mənəvi dəyərlərə bağlı böyüməsində mühüm rol oynayır və şəhidlərimizin adını yaşatmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən şəhid anası İradə Quliyeva şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi, şəhidlərimizin qanının yerdə qalmadığını və onların igidlik salnaməsinin daim yaşayacağını qeyd etdi.

Vətən müharibəsi iştirakçısı Turqay Məhərrəmov və Qabıllı kənd Kitabxanasının direktoru Xuraman Cəfərli çıxışlarında şəhidlərimizin igidliyindən, döyüş meydanında göstərdikləri rəşadətdən söz açdılar, təqdim olunan kitabın əhəmiyyətini yüksək qiymətləndirdilər.

Gənc yazar İlkanə Hüseynova müəllifi olduğu kitab haqqında ətraflı məlumat verdi, kitabın ərsəyə gəlmə məqsədindən danışaraq şəhid Ülvi Cəfərovun keçdiyi döyüş yolunun gələcək nəsillər üçün örnək olduğunu bildirdi. Müəllif qeyd etdi ki, kitabın əsas məqsədi qəhrəmanlıq tariximizi yaşatmaq və şəhidlərimizin xatirəsini gələcək nəsillərə çatdırmaqdır.



Tədbir çərçivəsində şəhid Ülvi Cəfərovun həyat və döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirildi, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən "Vətən oğlu" adlı ədəbi-bədii kompozisiya təqdim olundu.

Sonda şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov çıxış edərək övladının xatirəsinə göstərilən diqqət və ehtirama görə təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirdi, şəhid adının yaşadılmasının ailə üçün böyük qürur və təsəlli mənbəyi olduğunu vurğuladı.

**Bəxtiyar ƏLİYEV**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**





Tibb xidməti

# Əsgərlərimizin sağlamlığı güvənli əllərdədir

*Tibb məntəqəsində sakitlikdir. Məntəqə növbətçisi həmişəki kimi ona ayrılmış otaqda qeydiyyat jurnalını nəzərdən keçirirdi. Burada müraciət edən hərbi qulluqçular qeydiyyata alınır, müayinə və müalicəsi üçün həkimə təqdim edilir, müalicəsi başa çatanlar isə bölməsinə təhvil verilirdi. Bir sözlə məntəqədə xidmətin yüksək səviyyədə təşkil olunduğunun şahidi olurdum. Hərbi hissənin zabiti Murad Əhmədov tibb məntəqəsindəki həkimlərin, feldşerlərin fəaliyyətindən bütün şəxsi heyətin razı olduğunu bildirdi. Burada müayinə və müalicə prosesi ilə yanaşı, şəxsi heyətin sağlamlığının qorunması istiqamətində mütəmadi işlərin aparıldığını qeyd etdi.*

Məntəqə növbətçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Saleh Abdunovla salamlaşdıq. Onunla həmsöhbət olub, xidməti fəaliyyəti haqqında danışdıq. Hərbi qulluqçuların sağlamlığının keşiyində dayanmağın ikiqat məsuliyyət və bir o qədər də qürurlu olduğunu bildirdi. Çavuş S.Abdunov 2012-ci ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində sanitar-təlimatçı kursunu bitirib. O, bu ixtisası öz arzusu ilə seçdiyini bildirdi. "Müddətli həqiqi hərbi xidmətdə olarkən hərbçi olmaq qərarına gəldim. Bu müqəddəs peşəyə hər kəs rəğbət bəsləyir, lakin ordu sıralarında xidmət edəndə bu peşənin nə qədər çətin və şərəfli olduğunu daha dərindən dərk edirsən. Mən də müddətli xidmətim dövründə hərbi bilik və bacarıqları öyrəndikcə hərb peşəsinə sevgim daha çox artdı. Xidmətimin sonunda artıq həyatımı bu peşəyə bağlamağa qərar vermişdim. Tibb sahəsində ordumuza daha yararlı olacağımı düşündüm və bu ixtisası seçdim. Artıq 10 ildən çoxdur ki, bu sahədə xidmət edirəm və seçimimlə hər zaman qürur duyuram".




Saleh İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə xidmət etdiyi hərbi hissənin tərkibində yaralılara ilkin tibbi yardımın göstərilməsi və onların döyüş meydanından təxliyə olunmasında üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlib. Müharibə başa çatandan sonra göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu danılmaz faktdır ki, tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində qələbəni təmin edən amillərdən biri də tibbi təminat oldu. Peşəkar hərbi həkimlərimizin və bacarıqlı feldşerlərimizin döyüş meydanında göstərdiyi fədakarlıqlar itkilərimizi minimuma endirdi. Onların döyüş meydanında operativ şəkildə həyata keçirdikləri ilk tibbi yardımlar, qanaxmanın dayandırılması, tənəffüs yollarının açılması və sarğıların qoyulması kimi həyati vacib prosedurların sayəsində minlərlə döyüşçümüz yenidən həyata qayıtdı. Bir sözlə, ordumuzun bütün qoşun növlərində olduğu kimi, tibb xidməti də bu ağır sınaqdan başıuca çıxdı.

Bütün tibb personalı kimi Saleh də döyüşlərin iştirakçısı olmaqdan qürurlu olduğunu bildirdi. Müharibədən sonra da vəzifələrinin öhdəsində uğurla gəlmək üçün bütün məsuliyyəti ilə xidmət etdiyini vurğuladı. Hal-hazırda şəxsi heyətin mövsümi xəstəliklərdən, viruslardan qorunması üçün aparılan işlərdən danışdı. "Fəsilə uyğun olaraq şəxsi heyətin daha çox kəskin respirator xəstəliklərə yoluxma ehtimalı artır. Bunun qarşısını almaq üçün yerlərdə qabaqlayıcı profilaktik tədbirlər görülür. Öncədən görülən tədbirlərin nəticəsidir ki, tibb məntəqəsinə müraciət edənlərin sayı azdır. Tibbi ləvazimatlarımız və dərman təminatımız da yüksək səviyyədədir. Məntəqəmizdə xəstələrin müalicəsi üçün palatalarda zəruri şərait yaradılıb. Məntəqənin həkimləri müntəzəm olaraq bölmələrdə olur, xəstəliklərdən qorunmaq üçün əsgərlərlə üçün maarifləndirici söhbətlər aparırlar".

Tibbi təminatın yüksək səviyyədə təşkil olunması şəxsi heyətin sağlamlığının qarantıdır. Əsgərin sağlam olması isə yüksək döyüş hazırlığının təminatıdır. Bu müqəddəs və məsuliyyətli vəzifələrdə Salehə və onun timsalında bütün tibb xidmətinin heyətinə uğurlar arzulayırıq. Onların peşəkarlığı, bacarığı və fədakarlığı əmin edir ki, əsgərlərimizin sağlamlığı güvənli əllərdədir. Hər zaman əsgərləri sağlam, yüksək döyüş əhvali-ruhiyyəsində görmək arzusu ilə tibb məntəqəsindən ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: 31 Mart - Azərbaycanlıların soyqırımı günüdür.

**Suallar:**

**1. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu Fərmanın tarixi əhəmiyyəti.**

### Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri

XIX əsrin əvvəllərində Rusiya imperiyasının cənub dənizlərinə doğru həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində Qacarlar dövləti ilə Rusiya imperiyası arasında baş vermiş müharibələr nəticəsində 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrinin bağlanması Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarının bölünməsinin əsasını qoymuşdur. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Qacarlar dövlətindən 40 min, Osmanlı imperiyası ilə Rusiya imperiyası arasında baş vermiş müharibə nəticəsində bağlanılmış Ədirnə müqaviləsinə görə Osmanlı imperiyasından 86 min nəfər erməni Cənubi Qafqaza köçürülərək, əsasən Azərbaycan türklərinin yaşadığı İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində yerləşdirilir. Rusların bu ərazilərin işğalında xüsusi rol oynamış ermənilərin köməyi əvəzinə gəlmə ermənilər bu xanlıqların ərazilərində azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, ermənilər üçün Naxçıvan və İrəvan xanlıqlarının ərazisində rus çarının fərmanı ilə "erməni vilayəti" adı ilə inzibati ərazi bölgüsü yaradılmışdır. Cənubi Qafqaza köçürülmüş və getdikcə öz yerlərini möhkəmləndirən ermənilər "Böyük Ermənistan" yaradılması ideyasının və onun təbliği siyasətinin əsasını qoyurlar.

Ermənilərin öz xəyallarında uydurduqları bu dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəldilmiş geniş miqyaslı proqramlar hazırlanır və reallaşdırılır. Bu məsələlər xüsusilə XIX əsrin axırlarında yaradılmış "Armenakan", "Hnçaq", "Daşnaksütyun" və digər bu kimi şovinist erməni millətçi partiyalarının proqramlarında geniş yer alır. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni şovinist millətçiləri 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı təcavüzlər həyata keçirirlər. Ermənilərin 1905-ci ilin fevralından Bakıdan başladıqları vəhşiliklər Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan şəhər və kəndləri əhatə edir. Bu hadisələr nəticəsində yüzlərlə yaşayış məntəqəsi dağıdılaraq yerlə-yeksan edilir, minlərlə azərbaycanlı qətlə yetirilir.

Ermənilərə erməni dövlətini yaratmaq üçün öz planlarının reallaşdırılmasında Birinci Dünya müharibəsi və Rusiya imperiyasında baş verən inqilabi hadisələrin xüsusilə böyük rolu oldu. Müharibə şəraitində Rusiya imperiyasında baş vermiş fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən daşnak xisləti ermənilər öz məqsədlərini bolşevik bayrağı altında reallaşdırmağa nail oldular.

Azərbaycanlıların soyqırımı Bakıdan sonra Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvan quberniyasının azərbaycanlılar yaşayan ərazilərində və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdi. Bakıda olduğu kimi, bu ərazilərdə də dinc əhali kütləvi surətdə soyqırımına məruz qalmış, şəhərlər və kəndlər yandırılmış, dağıdılmış, azərbaycanlılara məxsus milli mədəniyyət abidələri məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919-cu və 1920-ci illərdə martın 31-i AXC tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Lakin AXC dövründə ermənilərin azərbaycanlılara qarşı soyqırımını araşdırmaq məqsədilə yaradılan komissiya sovet Rusiyasının ölkəmizi işğal etməsi səbəbindən öz işini başa çatdıra bilmədi.

Sovet Rusiyasının onlara qarşı isti münasibətindən və Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzur qəzasını və Azərbaycanın bir sıra mübahisəsiz torpaqlarını öz ərazilərinə qatmağa nail oldular. Ciddi-cəhdlə çalışsalar da, Qarabağı ələ keçirə bilməyən ermənilər 1923-cü ilin iyulunda ona muxtar vilayət statusu verdirməyə nail ola bildilər. Məqsəd isə gələcəkdə onu Ermənistan SSR-ə birləşdirmək idi.

Xaricdən gələn ermənilərin yerləşdirilməsi, həm də Kür-Araz ovalığının pambıq əkən rayonlarda işçi qüvvəsinin çatışmazlığı bəhanəsi ilə azərbaycanlıların əzəli torpaqlarından deportasiyasının növbəti mərhələsi həyata keçirilir. Belə ki, SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına - deportasiyaya məruz qalmış, öz tarixi Vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdir.

1988-ci ildən ortaya atılan Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına Azərbaycanda düzgün siyasi qiymət verilmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvarında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. Qarabağdakı azərbaycanlı kəndlərindən də azərbaycanlılar kütləvi surətdə təqib edilərək zorla qovuldu. 1992-ci ilin fevralın ortalarında ermənilər Xocavənd rayonunun Qaradağlı kəndinin 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. 1992-ci il fevralın 25-də isə erməni hərbi birləşmələri ilə sovet ordusundan qalma və şəxsi heyəti əsasən ermənilərdən ibarət olan 366-cı alay Xocalıya hücum edərək şəhərin əhalisinə vəhşicəsinə divan tutdular, daha bir dəhşətli soyqırımını törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, dəriləri soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət verməyi borcunu tarixin hökmü kimi qəbul edib.

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı və bu fərmanın tarixi əhəmiyyəti

Tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Yalnız müstəqillik dövründə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə əsl hüquqi-siyasi qiymət verildi. 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Ulu Öndər Heydər Əliyev bu Fərmanla 1918-ci ilin mart hadisələrini geniş şərh etdi, bolşevik cildinə girmiş erməni daşnaklarının Azərbaycan xalqının başına gətirdiyi müsibətləri dünyaya bəyan edərək qanlı əməllərə düzgün siyasi qiymət verdi və onu Azərbaycan xalqına qarşı törədilən ən böyük faciə adlandırdı. Erməni məkrini tarixi faktların dili ilə ifşa edən bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından bir növ proqram sənədidir. Fərmanda deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerləyeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük hissəsini xarabazarlığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər dağıdılmış, milli mədəniyyət abidələri məhv edilmişdir".

Azərbaycan tarixində ilk dəfə olaraq Ulu Öndər Heydər Əliyev erməni məkrini tarixi faktların dili ilə ifşa etdi. Ulu Öndərin imzaladığı Fərmanda ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi ədalətsizliklərlə üzləşdiyi yeni nəsillərə anladılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə, siyasi və çağdaş aspektlərinə nəzər salınır. Eyni zamanda, bu Fərman terrorizmə, soyqırımına qarşı mübarizə aparmaq üçün Ulu Öndərin müəyyən etdiyi bir yoldur. Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu sənədlə martın 31-i Azərbaycanlıların soyqırımı günü elan edilib.

Bu fərman həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açmış, xalqımızın qan yaddaşını təzələmişdir. Məlum olduğu kimi, xalqımız sovet dövründə uzun illər bu gerçəkliklərdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Hətta dəhşətli soyqırımın qurbanı olmuş minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstündə park salınmışdır. Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin imzaladığı Fərman 200 illik işğal və soyqırımı siyasətini açıb göstərən tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və Vətəninə bağlılığı baxımından da əhəmiyyətlidir. Fərman türk dünyasında bu məsələ ilə bağlı rəsmən bəyan edilən ilk hüquqi-siyasi sənəd olmaqla yanaşı, həm də tədqiqatçı alimləri yeni fəaliyyət yönümündə istiqamətləndirən dövlət sənədi oldu.

Ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün də zəifləməmiş, bədnam qonşularımız təbliğat və qarayaxma kampaniyasını bir az da gücləndirmişlər. Ermənilər Avropa və Amerikadakı lobbi imkanlarından yararlanaraq "əzabkeş erməni milləti" obrazını yaratmaqda davam edir, bütün yolverilməz vasitələrdən istifadə edərək əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə çalışırlar.

Son illərdə bunun qarşısını almaq üçün erməni saxtakarlığının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin fəaliyyəti daha da güclənmiş, ermənilərə qarşı ideoloji əks-hücum effektiv xarakter almışdır. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Sərəncamı bu işlərin vahid və sistemli surətdə aparılmasına imkan yaratmışdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Dövlət başçısı bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən erməniləri ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin azərbaycanlıların soyqırımı günü ilə bağlı xalqa müraciətlərində ermənilərin müxtəlif illərdə dinc azərbaycanlılara qarşı soyqırımı həyata keçirmələri, soydaşlarımızın yurd-yuvalarından didərgin salınması, ərazilərimizin işğalı, erməni şovinist millətçilərinin xalqımıza qarşı təcavüzünün, onun ağır nəticələrinin yüz minlərlə soydaşımızın taleyində özünü büruzə verməsi, Ermənistanın və havadarlarının təcavüzkar siyasətinin ifşa olunması, bunun hazırkı dünya siyasətinin aparıcı meyilləri ilə ziddiyyət təşkil etməsi qeyd olunmaqla yanaşı, belə bir zamanda dövlətin və hər birimizin qarşısında duran başlıca vəzifələr göstərilir.

Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik tələb olunur. İnanırıq ki, vaxt gələcək dünya birliyi ermənilərin Azərbaycan xalqına qarşı tarixən törətdiyi cinayətlərə, soyqırımına obyektiv qiymət verəcək.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# HHQ-də Bayraktar kursunun birinci buraxılış mərasimi keçirilib







Cari ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) nəzdində Bayraktar Texnoloji Azərbaycan Uçuş Hazırlığı Təlim Mərkəzində "Bayraktar TB2 Sistemi üzrə mütəxəssislərin hazırlığı kursu"nun birinci buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

General-mayor Həsən Əlövsədov məzunları buraxılış münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə kursun əhəmiyyəti vurğulanaraq bildirilib ki, bu cür kurslar hərbi qulluqçuların ixtisaslara yiyələnməsinə, bilik və bacarıqlarının təkmilləşdirilməsinə, eləcə də peşəkarlığının artırılmasına müsbət təsir göstərir.

Buraxılış mərasiminin sonunda kursu bitirənlərə sertifikatlar təqdim olunub.

# ƏÜO-da "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib







Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik ediblər. Qeyd olunub ki, kurs müddətində keçirilən intensiv təlimlər nəticəsində hərbi qulluqçuların peşəkarlıq səviyyəsi yüksəlib və potensial təhdidlərə qarşı istənilən şəraitdə müasir döyüş aparma üsulları mənimsənilib.

Kursu müvəffəqiyyətlə bitirən məzunlar "Komando andı"nı qəbul ediblər.

Sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Buraxılış mərasiminin sonunda şəxsi heyət təntənəli marşın sədaları altında tribunanın önündən keçib.

*Medallı igidlərimiz*

# Hər kəs Qələbə uğrunda "İrəli" deyirdi

Laçın Laçını görməmişdi. Doğmalarının laçınlı günlərindən söylədikləri xatirələrindən eşitmişdi bu yurdun adını… O, dünyaya göz açanda ata-anası, bütün nəsil, el-oba 5 il idi ki, əzəli yurd yerlərindən məcburi köçkün düşmüşdülər. Laçının uşaqlıq taleyinə də əzizlərinin torpaq həsrəti ilə yaşamaq acısı düşmüşdü.

Gənc zabit olan Laçın 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi - xalqımızın haqq işi uğrunda mübarizəsi başlayanda illərlə düşmən işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda gedən ağır döyüşlərə qatılır. Ana Vətənin çağırışına səs verənlərin sırasında o da olur. Xidmət etdiyi tank bölməsi döyüşün önündə gedirdi. Axı o bu günü çox arzulamışdı. Əmin idi ki, torpaqlarımız azad olunacaq, doğmalarının yurd həsrətinə son qoyulacaqdı…

Qalib ordumuz Zəfər qazanaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, qədim, tarixi torpaqlarından məcburi qaçqın və köçkün düşmüş həmvətənlərimiz dogma elinə, obasına döndülər. Laçının da əzizlərinin torpaq həsrətinə son qoyuldu. Onlar bu gün azad, xoşbəxt laçınlı günlərini yaşayırlar… Laçın da xəyalında qurduğu və yaşatdığı ata-baba yurdu Laçınına qovuşdu.

Qənbərov Laçın Şakir oğlu 10 mart 1995-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, 15 yaşından hərbi peşəyə böyük maraq göstərir. Orta məktəbi əla qiymətlərlə başa vuran Laçın sənədlərini 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təqdim edir. Şərəfli kursant adını daşımaq ona da qismət olur. Təhsil aldığı müddətdə hərbi vərdişlərə və ixtisası üzrə nəzəri, praktiki biliklərə dərindən yiyələnir. Təlimlərdə ixtisas biliklərini, hərb sənətinin sirlərini mənimsəməyə, döyüş, o cümlədən mənəvi-psixoloji və fiziki hazırlıqlarını daima artırmağa çalışır. Kollektivdə müəllimlərinin və kursant yoldaşlarının rəğbətini qazanır. 2018-ci ildə hərbi təhsilini "Tankçı" ixtisası üzrə bitirərək "N" hərbi hissəsində "leytenant" rütbəsində xidmətə başlayır.



Kapitan Laçın Qənbərovla xidmət etdiyi hərbi hissədə görüşüb söhbət apardıq. O, hərbi peşəni seçməsində və bu peşəyə sevginin aşılanmasında valideynlərinin də rolunun olduğunu dedi: "Hərbi peşə nə qədər çətin olsa da, o qədər də şərəflidir, müqəddəsdir. Bu peşə Ana Vətənimizi, torpağımızı qorumaq peşəsidir. Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun şəxsi heyəti qaynar döyüşlərin getdiyi ərazilərdə ən öndə irəlilədi. İllərlə erməni vandallarının dağıtdığı ata-babalarımızın tarixi yurd yerləri onların qəhrəmanlığı, igidliyi sayəsində azad olundu. Vətən müharibəsi başlayanda hərbi hissəmiz Füzuli istiqamətindən döyüşə girdi. Tank heyətlərimiz qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində yüksək peşəkarlıq, igidlik göstərdilər. Biz Cəbrayıl, Qubadlı istiqamətində döyüşlərin dərinliyinə doğru irəliləyirdik. Axırıncı döyüşüm Qubadlı rayonunun Soltanbəyli kəndi uğrunda gedən döyüşlər oldu. Yaralandım. Hospitala təxliyə edildim. Ərazilərimiz kənd-kənd işğaldan azad olunurdu. Hər kəs qələbə uğrunda "İrəli" deyirdi. O çətin, lakin qürurlu günləri yaşamaq özü bir xoşbəxtlik idi. Şəhid olan yoldaşlarımızı təəssüf hissi ilə xatırlayırıq. Məkanları cənnət olsun.

19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu antiterror əməliyyatı zamanı Ağdam-Ağdərə istiqamətində gedən döyüşdə də iştirak etdim. Xoşbəxt zabitlərdənəm ki, mən də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən əməliyyatların iştirakçısıyam. Bu gün döyüşlərdə qazandığım təcrübəni böyük həvəslə, qürurla tabeliyimdə olan şəxsi heyətə aşılayıram. Şəhidlərimizin şərəfli döyüş yolu hər birimiz üçün örnəkdir. O şəhidlərimizin qanı-canı bahasına ecdadlarımızın, ata-babalarımızın bizə miras qoyduqları qədim yurd yerlərimiz düşməndən təmizləndi. Anam əslən Qubadlı rayonunun Qəzyan kəndindəndir. Xalqımızın vətənpərvər oğlu, "Azərbaycanın Milli Qəhrəmanı" Əliyar Əliyev ana babamın əmisi oğludur. Ən böyük arzum Laçına, Şuşaya, Xocalıya gedib o yerləri gəzmək idi. Artıq arzuma çatmışam. Bu gün mənim də ata-baba yurdum Laçın laçınlı günlərini yaşayır".

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Laçın Qənbərov "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətənə xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

İnanırıq ki, döyüşlərdə möhkəmlənən kapitan Laçın Qənbərov hərbi bilik və bacarığını daha da artıraraq, qalib Azərbaycan Ordusunun daha da qüdrətlənməsinə öz layiqli töhfəsini verəcək, qətiyyətli, peşəkar zabitlərimizdən biri olacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Lalə HÜSEYNOVA | Lisenziya № 361 Sifariş № 228 Nüsxə 3638 |